UOT 341.

# AVROPA SOSİAL XARTİYASININ HÜQUQİ STATUSU

**Z.A.MİRZƏYEV**
***Bakı Dövlət Universiteti***
***zaka.mirzayev@gmail.com***

*Məqalədə Avropa sosial modelinin özəyini təşkil edən və sosial müdafiənin bütün cəhətlərinə aid yeganə regional müqavilə olan Avropa Sosial Xartiyasının beynəlxalq hüquq sistemindəki mövqeyi, habelə onun hüquqi məcburiliyi ilə bağlı nəzəri və təcrübi məqamlar araşdırılmışdır. Tədqiqatın məqsədinə nail olmaq üçün Xartiyanın mahiyyətinə onu təşkil edən bütün sənədlərin kontekstində baxılmış, eyni zamanda onun beynəlxalq və dövlətdaxili mövqeyi ilə bağlı mühüm məsələlər açıqlanmışdır.*

**Açar sözlər:** İnsan hüquqları, Avropa Şurası, Avropa Sosial Xartiyası, Avropa İnsan Hüquqları Konvensiyası, sosial hüquqlar, beynəlxalq müqavilə, öz-özünə icra olunan müqavilə

1961-ci il oktyabr ayının 18-də Turin şəhərində imzalanmış və 1965-ci il fevral ayının 25-də qüvvəyə minmiş Avropa Sosial Xartiyası uzun müddətdir ki, Avropa İnsan Hüquqları Konvensiyasını tamamlayan beynəlxalq hüquqi akt kimi nəzərdən keçirilir, tədqiq və təbliğ edilir. Bu təsadüfi deyil. Çünki hər iki müqavilə bir çox ortaq müddəaları ehtiva edir. Xartiyanı azadlığın “siyasi iqtisadiyyatı”nın təminatçısı da adlandırırlar [16, 86]. 1966-cı il İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktdan fərqli olaraq, Avropa Sosial Xartiyası iştirakçı tərəflərin öhdəlikləri ilə bağlı hər hansı məhdudlaşdırıcı prinsip müəyyən etmir. Adı çəkilən beynəlxalq paktın 2 (2)-ci maddəsinə görə İştirakçı Tərəflər mümkün vasitələrdən maksimum yararlanmaqla, Paktda tanınmış hüquqların tam həyata keçirilməsinə tədricən nail olmaq məqsədilə tədbirlər görmək öhdəliyi götürürlər [17, 145]. Paktda nəzərdə tutulan “tədricən nailolma” öhdəliyi Avropa Sosial Xartiyasında nəzərdə tutulmamışdır.

Avropa Sosial Xartiyasının müdafiə etdiyi iqtisadi, sosial və mədəni insan hüquqları təbiət etibarilə pozitiv yanaşma tələb etdiyi üçün həmin hüquqların realizəsi dövlətin nisbətən daha çox müdaxiləsini tələb edir. Lakin bu fərqli cəhət Xartiyanın özünəməxsus xüsusiyyəti kimi qeyd edilə bilməz. Çünki hələ təkcə Avropa Şurası çərçivəsində qəbul edilmiş və insan hüquqları ilə bağlı tematik xarakter daşıyan bir çox müqavilələrdə iştirakçı dövlətlərin

üzərinə eyni dərəcədə pozitiv öhdəliklər qoyur. Bundan başqa, Avropa İnsan Hüquqları Konvensiyası da Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən şərh edilərkən, əsas hüquqların həyata keçirilməsini təmin etmək üçün bəzi pozitiv öhdəliklər qeyd edilmişdir [10]. Belə ki, adı çəkilən məhkəmə iştirakçı tərəflərin hüquq pozuntularının qarşısının alınması üçün fəal tədbirlər görmək üçün konkret hallarda müdaxilə etməyi tələb etmişdir [19].

Tam rəsmi nöqteyi-nəzərdən yanaşsaq Avropa Sosial Xartiyasının hüquqi statusu ilə bağlı ən əhəmiyyətli məqamlardan biri adında "xartiya" sözünün əks edilməsinə baxmayaraq, onun hüquqi məcburi xarakter daşıyan beynəlxalq müqavilə olmasıdır [22, 18]. Bəzən belə bir sual verə bilərlər ki, Avropa Sosial Xartiyası, hüquqi statusuna görə, hüquqi məcburi xarakter daşıyan Avropa İnsan Hüquqları Konvensiyası kimi "konvensiya" deyil, nə üçün məhz "xartiya" adlandırılmışdır? Hamı tərəfindən qəbul edilən cavab bundan ibarətdir ki, hər bir halda belə yanaşma, Xartiyanın hüquqi statusunun obyektiv hüquqi qiymətləndirilməsindən daha çox, öz məqsədlərini həyata keçirmək istəyən hüquqi vasitələrə yönəldilmiş ideoloji tərəddüdlə xarakterizə olunur [15, 86].

İnsan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq müqavilə kimi Avropa Sosial Xartiyasının hüquqi məcburi təbiəti həm də onda ifadə edilir ki, bu sənədin təfsiri 1969-cu il "Müqavilələr hüququ haqqında" Vyana Konvensiyasının əhatəsinə düşür. Bununla bağlı insan hüquqlarının müdafiəsi sahəsindəki beynəlxalq müqavilələrin təfsirinə münasibətdə geniş məqsədyönlü yanaşmadan çıxış edən, Avropa Sosial Xartiyasının nəzarət sistemindəki əsas orqan olan Avropa Sosial Hüquqlar Komitəsi müəyyən etmişdir ki, *"İnsan hüquqlarının müdafiəsi aləti kimi Xartiyanın məqsədi və məramı subyektiv hüquqları təkcə nəzəri olaraq deyil, həm də faktiki müdafiə etməkdir"*.

Avropa Sosial Hüquqlar Komitəsi Xartiyaya çox açıq şəkildə insan hüquqları müqaviləsi kimi baxır və ona bütün insan hüquqları müqavilələrinə xas olan təfsir qaydalarını istifadə etməklə yanaşır.

Bir çox hüquqi məsələlərin beynəlxalq müqavilələrin kompleks qarşılıqlı əlaqəsində üzə çıxması və ya aydınlaşdırılması ilə əlaqədar olaraq, Avropa Sosial Xartiyasının beynəlxalq hüquqi statusunu müəyyənləşdirmək üçün onu təşkil edən bütün müqavilələrin kontekstində tədqiq edilməsi məqsədəuyğundur. Daha sonra isə Xartiyanın daxili hüquqi statusuna baxmaq lazımdır, hansı ki, bu zaman əsasən sosial-iqtisadi hüquqların tətbiq edilməsi kimi problemli məsələyə toxunulur.

Avropa Sosial Xartiyasının hüquqi statusu ilə bağlı mövzunun hər hansı bir mərhələsində ona sosial insan hüquqları müqavilələrinin kompleks şəbəkəsi desək, yanılmarıq. Xartiya həqiqətən də mənbəyini 1961-ci ildə imzalanmış ilkin Xartiyadan götürən beş ayrıca müqavilənin birləşməsidir. Bu müqavilələr arasında qarşılıqlı əlaqə və uzlaşma kifayət qədər mürəkkəbdir. Bu barədə bəhs edərkən, bir çox məqamları vurğulamaq zərurəti yaranır.

Avropa Sosial Xartiyası insan hüquqları müqavilələri üçün qeyri-adi

olan strukturu özündə birləşdirir. Xartiyanın Birinci Hissəsi iştirakçı dövlətlərin öz sosial siyasətlərinin məqsədləri kimi qəbul etməli olduğu 19 prinsipi birləşdirir. Bu 19 prinsip öz növbəsində ilkin Xartiyanın İkinci Hissəsində əks edilməklə müvafiq hüquq və öhdəlikləri daha ətraflı müəyyən edir. İştirakçı dövlətlər 19 maddənin hər birini qəbul etmək öhdəliyi daşımırlar. Sadəcə, bütün iştirakçı tərəflərin öhdəlik götürməli olduğu "əsas" sosial, iqtisadi və mədəni hüquqlarla, onların seçim sərbəstliyi ilə qəbul edə bildikləri digər hüquqlar fərqləndirilir.[1]

"Əsas" hüquqlardan başqa, iştirakçı dövlətlərdən qalan maddələrin ən azı 10-u üzrə tamamilə və ya ayrı-ayrılıqda 45 bənd üzrə öhdəlik götürmək tələb olunur. Bu, insan hüquqlarına Xartiyanın özünəməxsus "yanaşması"dır və bununla Xartiya digər analoji beynəlxalq müqavilələr olan və iştirakçı dövlətlər üçün belə bir seçim azadlığı qoymayan 1966-cı il İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın, habelə 1950-ci il Avropa İnsan Hüquqları Konvensiyasının tətbiqi xüsusiyyətlərindən əhəmiyyətli dərəcədə fərqlənir.

Avropa Sosial Xartiyası həm də sosial hüquqlarını qoruduğu şəxslərin əhatə dairəsinə görə insan hüquqları üzrə bir çox müqavilələrdən, o cümlədən iştirakçı dövlətin yurisdiksiyasında olan hər bir kəsə münasibətdə tətbiq edilən Avropa İnsan Hüquqları Konvensiyasından fərqlənir. Belə ki, 1961-ci il Xartiyasının ayrılmaz tərkib hissəsi hesab edilən 1988-ci il Əlavə Protokolu, habelə Dəyişdirilmiş Sosial Xartiyaya Əlavənin 1-ci maddəsi aydın şəkildə müəyyən edir ki, Xartiyanın müddəaları iştirakçı dövlətin öz vətəndaşlarına, habelə onun ərazisində qanuni əsaslarla yaşayan və daimi olaraq işləyən, Xartiyanın digər İştirakçı Tərəflərin vətəndaşlarına şamil edilir.

Avropa Sosial Xartiyası Avropa Şurasının statut konvensiyaları ilə eyni xarakterə malikdir. Avropa Şurasının statut konvensiyaları dedikdə o sənədlər nəzərdə tutulur ki, təşkilata qoşulmaq istəyən dövlətlərdən həmin konvensiyaları imzalamaq və ağlabatan müddətdə ratifikasiya etmək tələb olunur. Avropa Şurasının Nizamnaməsi kimi statut sənədləri də üzv dövlətlər üçün məcburi hüquqi qüvvəyə malikdir [7, 34].

Xartiyanın ratifikasiyası prosesində qarşıya çıxan ilk məsələlərdən biri dövlətin bütün müddəaları qəbul edə bilmək imkanında olub-olmasını, həmçinin müəyyən müddəaların seçilməsini müəyyənləşdirməkdir. Avropa dövlətlərində sosial və iqtisadi quruluşun müxtəlifliyini nəzərə alaraq Xartiya, yuxarıda qeyd edildiyi kimi, bütün maddələrin dərhal qəbul edilməsini «təkid etmir». O, əsas müddəalar (ingiliscə - hard core provisions) əks olunan doqquz

[1] *İlkin Sosial Xartiya 1996-cı il Dəyişdirilmiş Sosial Xartiyadan fərqli olaraq, 7-ci maddəni (uşaqların və gənclərin müdafiə hüququ) "əsas" hüquq hesab etmirdi. Bundan başqa, Dəyişdirilmiş Avropa Sosial Xartiyasınn 20-ci maddəsi (cinsindən asılı olmayaraq, məşğulluq və iş məsələlərində bərabər imkanlar və bərabər rəftar hüququ) də ilkin Xartiyada olmadığı üçün, "əsas" hüquqlar sırasına daxil deyildi.*

maddənin ən azı altısının məcburi qəbul edilməsini, bütövlükdə isə maddələr arasında seçim imkanını göstərir.

Maddələrin qəbul edilməsində iki cür yanaşma mümkündür:

1) 1961-ci və ya 1996-cı il Xartiyasının məhdud sayda müddəaları qəbul edilə bilər. Bu halda dövlət çətinlik yaratmayan müddəaları seçir və əmin edir ki, qanunverici, sosial və iqtisadi tərəqqi baş verdikcə o, digər maddələri və bəndləri də qəbul etməkdə davamlı olacaqdır. Sonrakı müddəalar Avropa Şurasının Baş Katibini xəbərdar etməklə hər bir vaxt qəbul edilə bilər.

2) Müqavilənin bütün müddəaları dərhal dövlət tərəfindən qəbul edilə bilər. Xartiya sosial insan hüquqlarının müdafiəsi sahəsində bir vasitə olduğu üçün hər bir iştirakçı dövlət tələb olunan öhdəliklərin həyata keçirilməsinin ən yüksək səviyyəsinə çatmağa can atmalıdır.

Avropa Şurasının 47 üzv dövlətindən 7-si Avropa Sosial Xartiyasına qoşulmamışdır. Qalan 40 dövlətdən 13-ü 1961-ci il Xartiyası, 27-si isə 1996-cı il Dəyişdirilmiş Sosial Xartiya üzrə öhdəlik daşıyır. Altı dövlət - Belçika, Fransa, İtaliya, Portuqaliya, Niderland və İspaniya 1961-ci il Xartiyasının bütün müddəalarını qəbul etmişdi. Lakin Dəyişdirilmiş Xartiyanın 1961-ci il Xartiyasını tədricən əvəz etməsi məqsədinə və təcrübəsinə uyğun olaraq, hazırda adı çəkilən dövlətlərdən yalnız İspaniya hələ ki, sözügedən ilkin Xartiyanı tətbiq edir, digərləri isə sonradan Dəyişdirilmiş Sosial Xartiyanı ratifikasiya etdiyindən artıq 1961-ci il Xartiyası üzrə öhdəlik daşımırlar.[1]

Göründüyü kimi, hazırda *(2010-cu ilin 01 dekabr tarixinə olan vəziyyət)* heç bir dövlət 1961-ci il Avropa Sosial Xartiyasının bütün müddəaları üzrə öhdəlik daşımır. Yalnız İspaniya bütün maddələri qəbul etsə də, bir müddəaya münasibətdə öhdəliyini dayandırmışdır. 1996-cı il Dəyişdirilmiş Xartiyaya gəldikdə isə, yalnız Fransa və Portuqaliya sonuncunun bütün müddəalarını qəbul etmişdir *(2010-cu ilin 01 dekabr tarixinə olan vəziyyət).*

İştirakçı tərəflərin Xartiyada əks etdirilən bütün sosial hüquqlarla bağlı öhdəliyinə gəlincə, belə nəzərdə tutulmuşdur ki, iştirakçı tərəflər özlərinin bütün lazımi, həm milli, həm də beynəlxalq səciyyəvi vasitələrinin köməyi ilə həyata keçirəcəkləri siyasətin məqsədi kimi, bu beynəlxalq sənəddə əks olunan hüquq və prinsiplərin səmərəli həyata keçirilməsini təmin edən şəraitin yaradılmasını qəbul edirlər [4, 1-ci Hissə, 1-ci abzas]. Ratifikasiya etməklə ilk hesabatın təqdim edildiyi vaxt arasındakı təxminən iki illik müddət milli hüquq və təcrübədə mövcud olan boşluğun doldurulmasında mühüm rol oynayır.

---

[1] *Avropa Şurasının üzvü olan Lixtenşteyn, Monako, San Marino və İsveçrə Avropa Sosial Xartiyasına qoşulmamışdır. Niderland Xartiyanın bütün müddəalarını Pays-Bas vilayətinə münasibətdə qəbul etmişdir. Antills və Aruba vilayətlərinə gəldikdə isə, yalnız ASX-nın 1,5,6,16-cı, 1№-li Əlavə Protokolun 1-ci maddələri bu vilayətlərə şamil edilir. İspaniya isə 1991-ci ilin 5 iyun tarixindən ASX-nın 8-ci maddəsinin 4-cü bəndinin b) yarımbəndinə münasibətdə öhdəliyini dayandırdığını bildirmişdir. Azərbaycan Respublikası Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə Xartiyanın müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat verməmişdir.*

Avropa İnsan Hüquqları Konvensiyasından fərqli olaraq, Avropa Sosial Xartiyası bu vaxta qədər iştirakçı tərəflərin konstitusion sistemində aydın statusa malik olmamışdır. Dövlətdaxili hüquq sistemində müəyyən dayağı olan normaları əks etdirmək və daha da möhkəmlətmək beynəlxalq hüquq üçün adi haldır. Avropa sosial hüquq modeli də özündə əks etdirdiyi hüquqların müasir demokratik dövlətin məqsədlərinə daxil olması ilə xarakterizə olunur. Eyni zamanda, bu hüquqlar qanunvericilik şəbəkəsi ilə dəstəklənir. Hər bir halda, bu bir həqiqətdir ki, sözügedən hüquqlar milli konstitusional sistemlərdə kifayət qədər möhkəm əks olunmamışdır və az, zəif hüquqi müdafiə vasitələrinə malikdir.

Avropa Sosial Xartiyasının beynəlxalq hüquqi mövqeyi onun spesifik xüsusiyyətlərinin mahiyyətinə bir qədər də yaxından baxmağa imkan verir. Bunun üçün Xartiyanı digər uyğun beynəlxalq müqavilələrlə qismən müqayisə edək:

Bəzən adı «Sosial Xartiya» kimi hallanan Avropa Birliyinin İşçilərin əsas sosial hüquqları haqqında Xartiyası Avropa (*Şurasının*) Sosial Xartiyası ilə qarışdırılır. Avropa Birliyinin sosial tərkibinin vahidliyinə dəstək vermək məqsədi daşıyan «Sosial Xartiya» təşkilatın üzv dövlətlərinin siyasi iradələrini nümayiş etdirməklə Avropanın bütün vətəndaşları üçün təmin edilməli olan bir sıra hüquqları müəyyənləşdirir. Əsasən məşğulluqla bağlı olan bu hüquqlar qismən Avropa Sosial Xartiyası ilə müdafiə olunan hüquqlarla eynidir.[1]

Avropa Sosial Xartiyası onu ratifikasiya etmiş dövlətlər üçün məcburi və müəyyən hüquqi öhdəliklər yaradan müqavilədir. Bunun əksinə olaraq Avropa Birliyinin İşçilərin əsas sosial hüquqları haqqında Xartiyası heç bir hüquqi öhdəlik yaratmayan siyasi bəyannamədir. Belə ki, onun tətbiqi digər sənədlərin – Avropa Birliyinin direktivləri vasitəsilə həyata keçirilir. Avropa Birliyi Xartiyasında nəzərdə tutulan hüquqların təminatı üzv dövlətlərin və bu hüquqların tətbiqi üçün tələb olunan direktivlərin və normativ aktların qəbul edilməsi ilə bağlı təşəbbüslər irəli sürən Avropa Komissiyasının üzərinə qoyulur. Avropa Birliyində sosial siyasətin normativ bazası əsasən çoxlu sayda direktivlərdən asılıdır. Avropanın yalnız yarısını əhatə edən belə bir sistem bu səbəbdən də mükəmməl hesab edilə bilməz.

Avropa Sosial Xartiyası Avropa Birliyinin sözügedən Xartiyası ilə müqayisədə daha geniş tətbiqetmə sahəsinə malikdir. İkinci yalnız işçilərin sosial hüquqlarının müdafiəsi ilə məhdudlaşdığı halda, Avropa Sosial Xartiyası bütün əhalinin sosial hüquqlarını təmin edir. Avropa Sosial Xartiyası ilə Avropa Birliyinin sosial hüquq sistemi arasındakı əsas fərqləri Olster Univer-

---

[1] *Avropa Birliyi Xartiyası 1989-cu ilin dekabrında Strasburqda Avropa Birliyinin 11 üzv dövlətinin (Belçika, Danimarka, Fransa, Almaniya, Yunanıstan, İslandiya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya və İspaniya) dövlət və hökumət başçıları tərəfindən qəbul edilmişdir. Avropa Birliyinin üzv dövlətlərindən yalnız Böyük Britaniya bu Xartiyanı həmin vaxt qəbul etməmiş, 1997-ci ildə hökumət dəyişikliyindən sonra ratifikasiya etmişdir.*

sitetinin Avropa hüququ üzrə professoru Barri Fitzpatrik aşağıdakılarda görür:

«*Avropa Sosial Xartiyası iqtisadi və sosial hüquqların mükəmməl məcəlləşdirilməsidir, Avropa Birliyində isə sosial hüquqların tam olmayan məcəlləsinin tədrici inkişaf prosesi mövcuddur... Xartiyanın milli hüquqa təsiri milli hüquq sistemlərindən asılıdır, Avropa Birliyinin sosial hüquqları isə milli məhkəmələr üçün hüquqi-məcburidir. Bundan başqa Avropa Sosial Xartiyasının tətbiqinə nəzarət Avropa Sosial Hüquqlar Komitəsi və Şuranın ümumi mexanizmi vasitəsilə həyata keçirilirsə, Avropa Birliyində bu prosesdə milli məhkəmələrlə yanaşı beynəlxalq orqan – Avropa Ədalət Məhkəməsi iştirak edir...* » *[31, 69].*

Avropa Birliyinin bütün üzv dövlətləri Avropa Sosial Xartiyasını ratifikasiya etmişdir. Birliyin 27 üzv dövlətindən 17-si - Belçika, Bolqarıstan, Kipr, Estoniya, Finlandiya, Fransa, İrlandiya, İtaliya, Litva, Malta, Niderland, Portuqaliya, Rumıniya, Sloveniya, Slovakiya, Macarıstan və İsveç Dəyişdirilmiş Avropa Sosial Xartiyasının, digər 10-u - Avstriya, Çex Respublikası, Danimarka, Almaniya, Yunanıstan, Latviya, Lüksemburq, Polşa, İspaniya və Böyük Britaniya isə 1963-cü il Avropa Sosial Xartiyasının iştirakçılarıdır *(2010-cu il 01 dekabr tarixinə olan vəziyyət).* 1999-cu ilin 01 may tarixdə qüvvəyə minmiş Avropa Birliyi dövlətlərinin Amsterdam müqaviləsinin Preambulasında və 136-cı maddəsində bu müqaviləyə birbaşa istinad edilir. Həmin müqavilənin 136-cı maddəsinin 1-ci bəndində isə həmçinin «*Birlik və üzv dövlətlər ... Avropa Sosial Xartiyasında...əks olunan əsas sosial hüquqları nəzərə alaraq...*» ifadəsi yer alır.

Qərb mütəfəkkirləri arasında belə bir fikir var ki, Avropada sosial hüquqlar insan hüquqları üzrə iki mühüm beynəlxalq müqavilə ilə tənzimlənir:

1. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası (Avropa İnsan Hüquqları Konvensiyası);
2. Avropa Sosial Xartiyası.

Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən "*Avropada ictimai qayda yaradan sənəd*" [1] kimi qəbul olunan Avropa İnsan Hüquqları Konvensiyası soyuq müharibə dövründə təkcə əsas azadlıqların deyil, həmçinin sosial hüquqların da müdafiəsində əhəmiyyətli rol oynamışdır. Həmin vaxt Xartiya hələ bu günki qədər effektli hüquqi sənəd deyildi. Deməк olar ki, Xartiya öz potensial imkanlarını son on ildə həyata keçirməyə və bununla da Konvensiyanın tamamlayıcısı rolunu ifa etməyə başlamışdır. Mahiyyət etibarilə sözügedən Konvensiya hazırda da üzv dövlətlər üçün məcburi hüquqi qüvvəyə malik olan əsas müqavilədir. Avropa Şurasına üzvlük və Avropa İnsan Hüquqları Konvensiyasına qoşulmaq bir-birindən ayrı təsvir edilə bilməz. Belə ki, Avropa İnsan Hüquqları Konvensiyasının 58-ci maddəsinin 3-cü bədinə əsasən "Avropa Şurasının üzvlüyündən çıxan hər hansı Razılığa gələn Tərəf bu Konvensiyada da iştirakını dayandırmış olur."

Demokratiya və insan hüquqlarına hörmət, sosial cəhətləri də daxil olmaqla əsas azadlıqların və mədəni hüquqların müdafiəsi Avropa İnsan Hü-

huquqları Konvensiyasının əsas məqsədidir *[10, Preambula, birinci abzas]*. Avropa Sosial Xartiyasında qarşıya qoyulan əsas vəzifə isə əmək, sosial məsələlər və səhiyyə sahələrində insan hüquqlarının müdafiəsinin tənzimlənməsidir.

Konvensiya hüquq qaydasını əsas götürdüyü halda *[10, Preambula, yeddinci abzas]*, Xartiyada bu barədə birbaşa şərt yoxdur. Lakin təcrübədə hüquq qaydasına nail olmaq Xartiyanın başlıca məqsədlərdən biri kimi təzahür edir. Sözügedən bu iki beynəlxalq müqavilə arasında artmaqda olan ümumi əsaslar vətəndaş, siyasi hüquqlar və sosial hüquqlar arasındakı ayrılmazlığı, eyni zamanda da onların müstəqilliyini açıb göstərir.

Həm Konvensiya, həm də Xartiya mücərrəd hüquqi fəlsəfə terminologiyasına malik beynəlxalq sənədlərdir. Bu beynəlxalq sənədlərdəki müddəaların dəqiq mənaları müvafiq olaraq Avropa İnsan Hüquqları Məhkəməsinin və Avropa Sosial Hüquqlar Komitəsinin baxdıqları işlərdə müəyyənləşir.

Hər iki müqavilə hüquqi məcburi xarakter daşıyır. Fərq ondan ibarətdir ki, Konvensiya dövlətlərdən onu tamamilə və fərdlərə birbaşa aidiyyətlə ratifikasiya etməyi tələb edir, Xartiya isə onun iştirakçı dövlətlərin qanunvericiliyi və hüquq təcrübəsi vasitəsilə tətbiq olunmasını tələb edir. Lakin bəzi halda təcrübə Xartiyanın bəzi müddəalarının milli məhkəmələr tərəfindən birbaşa tətbiqinin mümkünlüyünü (Almaniyada, İtaliyada, Niderlandda, Rumıniyada, İspaniyada) göstərmişdir.

Konvensiya ilə qorunan hüquqlar təbiətinə görə fərdi və müdafiə olunandır. Konvensiya vətəndaşları daha çox onların vətəndaş və siyasi hüquqlarına dövlət məmurlarının müdaxiləsindən qoruyur. Sosial hüquqların əksəriyyəti isə öz növbəsində kollektiv təbiətə malikdir və əksər hallarda dövlət tərəfindən pozitiv fəaliyyət tələb edir. Kollektivlik və fərdilik hüquqi proseslərdə üzə çıxır. Belə ki, özünü hüququ pozulmuş hesab edən hər bir fərd Konvensiyaya əsasən müvafiq prosedurlar tükəndikdən sonra fərdi olaraq Avropa İnsan Hüquqları Məhkəməsinə şikayət edə bilir. Xartiya isə yalnız müəyyən təşkilatların şikayət vermək hüququnu təmin edir ki, bu zaman əgər hər hansı bir fərd onun işinə Avropa Sosial Hüquqlar Komitəsi tərəfindən baxılmasını arzu edirsə, o, yalnız həmin təşkilatlar tərəfindən məsələnin kollektiv şikayətlər sistemi çərçivəsində təqdim edilməsinə nail olmalıdır.

Konvensiya əsasındakı hüquqi proses milli qanunvericiliyin və ya inzibati təcrübənin dəyişilməsi üçün, həmçinin vurulmuş zərərin və ya hüquqi xərclərin kompensasiyası ilə bağlı tövsiyələrdən ibarət olan hüquqi-məcburi məhkəmə qərarları ilə nəticələnir. Kollektiv şikayətlər prosesinin məntiqi nəticəsi isə Avropa Sosial Hüquqlar Komitəsinin daha az ciddi olan hüquqi-məcburi qərarlar verməsi ola bilər. Xartiyanın kollektiv şikayətlər sistemində Konvensiya üzrə şikayətlərdən fərqli olaraq maraqlı iştirakçı tərəfin daxili müdafiə vasitələrinin tükənməsi tələb edilmir.

Vaxtaşırı olaraq əsasən Avropa Şurasının Parlament Assambleyasında belə bır fikir səslənir ki, Xartiyada əks olunan bəzi hüquqlar Avropada həm regional səviyyədə, həm də üzv dövlətlərin bir çoxunda kifayət qədər möh-

kəmləndiyi üçün Avropa İnsan Hüquqları Konvensiyasının tərkibinə daxil edilməlidir [26]. Belə olduğu halda, Xartiya çərçivəsində müdafiə edilən bu hüquqlar Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyasına daxil olmalıdır ki, bu prosesin reallaşması üçün də uzunmüddətli bir zaman tələb edilir.

Konvensiya ilə müqayisədə Avropa Şurası məkanı üçün Xartiyanın məcburi hüquqi qüvvəsi zəifdir. 1989-cu ildə 23 dövlət Konvensiyanı ratifikasiya etmiş olduğu halda, cəmi 14 dövlət Xartiyanın iştirakçı tərəfi idi. Bu vəziyyət onunla izah olunur ki, 1974-cü ildən Avropa Şurasına daxil olmaq üçün 1950-ci il İnsan Hüquqları üzrə Avropa Konvensiyasını imzalamaq siyasi öhdəlik kimi nəzərdə tutulurdu. Bu gün vəziyyət bir qədər Xartiyanın xeyrinə dəyişməkdədir. Çünki artıq qeyd etdiyimiz kimi, keçən əsrin sonlarından etibarən Avropa Şurasına üzv olan dövlətlər üçün üzv olduqdan sonrakı müəyyən müddət ərzində Avropa Sosial Xartiyasına qoşulmaq kimi oxşar öhdəlik var.

Göründüyü kimi, Xartiya iştirakçı tərəflərə siyasi ziddiyyətlər üçün boşluq formalaşdıra bilən ciddi sosial parçalanmadan yayınmaq imkanı verən Avropa Şurasının sosial siyasətinin ən mühüm alətidir.

1961-ci il Xartiyasına Əlavədə vurğulanır ki, tətbiqinə Xartiyanın IV Hissəsində nəzərdə tutulan nəzarətin şamil edildiyi öhdəliklər müqavilə hüququ baxımından beynəlxalq xarakter daşıyır və yuxarıda qeyd edildiyi kimi, əsasən üzv dövlətlərin qanunvericiliyi və inzibati hüququ vasitəsilə tətbiq edilir. Buna görə də, bəzi dövlətlərin təcrübəsində rast gəlinən istisna hallar nəzərə alınmasa, Xartiya üzv dövlətlərin daxili hüququnda öz-özünə icra edilə bilən müqavilə hesab edilmir. Eyni zamanda Xartiya Avropa İnsan Hüquqları Konvensiyasında müəyyən edilmiş, yerli məhkəmələr vasitəsilə həlletmə məhdudiyyətini nəzərdə tutmur. Həmçinin Avropa Sosial Hüquqlar Komitəsinin İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Beynəlxalq Pakta "*paktın daxili hüquqda tətbiqi*" haqqında 9-cu Ümumi Şərhə bənzər təcrübə hüququ da yoxdur. Ümumiyyətlə, Avropa Sosial Hüquqlar Komitəsinin normativ müddəaların başa düşülməsinin gücləndirilməsində faydalı rol oynayan Ümumi Şərhlər qəbul etmək təcrübəsindən istifadə etməməsi onun fəaliyyətinin zəif tərəflərindən biri hesab edilir [16, 94].

Xartiyanın yuxarıda qeyd olunan Əlavəsinə baxmayaraq, Hollandiya və Belçika məhkəmələri iştirakçı tərəflərin məhkəmələri arasında ilk addım ataraq, Xartiyanın müddəalarını öz qərarlarında istifadə etmişlər. Belə ki, Hollandiyanın Ali Məhkəməsi Xartiyanın 6-cı maddəsinin 4-cü bəndinin tətil hüququ ilə bağlı birbaşa tətbiqini tanımışdır [27]. Habelə Belçika Dövlət Şurası 1996-cı ildə Xartiyanın 6-cı maddəsini bir daxili inzibati aktı ləğv etmək üçün mülahizəsinin əsaslandırılmasında istifadə edərək, Xartiyanı daxili hüququnun mənbəyi kimi tanımışdır. Hazırda Macarıstan, Almaniya, Finlandiya və İtaliya Avropa Sosial Xartiyasını bu və ya digər səviyyədə inkorporasiya etmişlər. Almaniya Federal Əmək Məhkəməsi hələ 1984-cü ildə qəbul etmiş olduğu qərarlarının birində təsdiq etmişdir ki, milli məhkəmələr əmək mübahisələri üzrə qanunvericilikdəki boşluqları təfsir etməli olduqda,

Xartiyada nəzərdə tutulmuş öhdəliklər onlar üçün məcburi xarakter daşıyır [16, 91 və 94]. Bundan başqa, İtaliya Konstitusiya Məhkəməsi Avropa Sosial Xartiyasını daxili qanunvericiliyi təfsir etməsi üçün istifadə etmişdir [24]. Eyni zamanda Rumıniyanın Konstitusiya Məhkəməsi də ölkənin daxili qanunvericiliyinin konstitusiyaya uyğunluğunu nəzərdən keçirərkən, müvafiq məqamlarda Xartiyaya istinad etmişdir [29].

Avropa Sosial Hüquqlar Komitəsi Xartiyada nəzərdə tutulan bir sıra hüquqları daxili vasitələrin ilkin formasını müəyyən etmədən bu vasitələrin zəruriliyinə səbəb kimi şərh etmişdir. Bu, özünü xüsusən qeyri-ayrıseçkiliyə həsr edilmiş E maddəsinin müxtəlif əhəmiyyətli hüquqlarla qarşılıqlı əlaqəsində göstərir. Qeyri-ayrıseçkiliklə bağlı qadağa davranış üzrə deyil, nəticə üzrə öhdəlikləri formalaşdırır. Müstəqil qurumlara münasibətdə daxili vasitələrin təmin edilməsi Komitə tərəfindən əməyin ədalətli ödənilməsi hüququ (4-cü maddə), sosial və tibbi yardım hüququ (13-cü maddə), miqrant işçilərin deportasiya edilməmə hüquqları (19-cu maddənin 8-ci bəndi), daha sonra iş yerində ayrı seçkilikdən müdafiə hüququ (1-ci maddənin 1-ci bəndi), əlil şəxslərin təhsil və iş yerində ayrı seçkilikdən müdafiə hüququ (15-ci maddənin 1-ci və 2-ci bəndləri) ilə əlaqədar tələb edilmişdi.

1961-ci il Xartiyasının 32-ci maddəsi, habelə Dəyişdirilmiş Sosial Xartiyanın H maddəsi bu sənədin milli hüquq sistemində tətbiqi ilə bağlı mühüm bir məqama toxunur. Belə ki, həmin maddəyə əsasən Xartiyanın şərtləri qüvvədə olan müqavilələr və ya konvensiyalar əsasında müəyyən edilən daha yüksək standartların tətbiq edilməsinə mane olmamalıdır.

2004-cü ildən Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olmuş Avropa Sosial Xartiyasının hüquqi statusunun araşdırılması nəticəsində məlum olur ki, sözügedən sənəd

1. Avropada sosial müdafiənin bütün cəhətlərinə aid olan təminat mexanizmini ehtiva edən yeganə müqavilədir;

2. Avropa Sosial Xartiyası Avropa regionunda insan hüquqlarının müdafiəsi sahəsində 1950-ci il Avropa İnsan Hüquqları Konvensiyasının tamamlayıcısı kimi tanınsa da, sosial hüquqların müdafiə mexanizmi Konvensiya ilə müqayisədə daha az səmərəliliyi ilə xarakterizə olunur;

3. Avropa Sosial Xartiyasının nəzarət mexanizmi dövlətdaxili müdafiə institutlarının ədalətli yanaşmasının olmadığı, habelə daxili hüquq sisteminin lazımi qaydada həyata keçirilmədiyi hallarda bu sahədəki mövcud problemlərin kökündən həlli üçün nəinki kifayət etmir, hətta bu cür həll qeyri-mümkündür.

**ƏDƏBİYYAT**

1. Avropa İnsan Hüquqları Məhkəməsinin "Loizodou Türkiyəyə qarşı" işi üzrə çıxardığı 1995-ci il 23 mart tarixli Qərar (Series A, No 310).
2. "Avropa Sosial Xartiyasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2004-cü il 06 yanvar tarixli 575-IIQ saylı Qanunu.
3. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 7 aprel tarixli 1193 saylı Sərəncamı ilə təsdiq edilmiş «Avropa Sosial Xartiyasında nəzərdə tutulmuş normaların tətbiqi üzrə

Dövlət Proqramı».
4. Dəyişdirilmiş Avropa Sosial Xartiyası, 3 may 1996-cı il. “Azərbaycan Respublikasının Qanunvericilik Toplusu», 2003-cü il, № 4/
5. Əliyev Əmir. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri: Dərslik. Bakı: Bakı Dövlət Universiteti, 2007, 487 s.
6. Əliyev Ş. “İnsan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq-hüquqi nəzarət // Beynəlxalq hüquq və inteqrasiya problemləri” (elmi-analitik və praktiki jurnal), 2006, №4 (08), s.15-23.
7. Florans Benua-Rober, Henris Klebex. Avropa Şurası hüququ Pan-Avropa hüquqi məkanına doğru. Fransız dilindəki nəşri İSBN 92-871-5593-3, 272 s.
8. “İqtisadi, sosial və mədəni hüquqlar haqqında” 1966-cı il Beynəlxalq Paktı.
9. İqisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt üzrə Ümumi Şərh – 3, 1994-cü il;
10. 1950 Convention for the Protection of Human Rights and Fundamental Freedoms (ETS No. 5);
11. Гусейнов Л. Г. Международные обязательства государств в области прав человека. Баку: Hüquq ədəbiyyatı, 1998, 188 s.
12. Гусейнов Л.Г. Международная ответсвенность государств за нарушения прав человека. Монография, Киев: Институт государства и права НАН Украины, 2000, 316 s.
13. 24/11/08, RAP/RCha/AZ/II(2008) / Revised European Social Charter 2nd report on the implementation of the revised European Social Charter submitted by the Government of Azerbaijan (articles 11 and 14 for the period 01/11/2004 – 31/12/2007) report registered at the secretariat on 24/11/2008, cycle 2009;
14. MOWBRAY, A.R., 2010. A Study of the Principle of Fair Balance in the Jurisprudence of the European Court of Human Rights. Human Rights Law Review, 10(2), pp. 289-317;
15. Alston & Quinn, “The Nature and Scope of States Parties Obligations under the International Covenant on Economic, Social and Cultural Rights”, Human Rights Quarterly Vol. 9, No. 2 (May, 1987), pp. 56-229;
16. Collection of materials for Training and Advocacy Session: The ESC in Practice, Brussels, 18-19 January 2007;
17. Digest of the Case Law of the ECSR, March 2005, prepared by the Social Charter Secretariat, 225 p.;
18. European Court Of Human Rights / McGlinchey v UK, No 50390/99 ECHR (2003-V), 29.04.03;
19. European Court Of Human Rights / Z and other v UK, No 2939295 ECHR (2002-V), 10.05.01;
20. European Social Charter - Collected texts- 3rd edition (2001), ISBN 92-871-4310-2, 252 p.;
21. European Social Charter (revised) / European Committee of Social Rights, Conclusions 2008 (AZERBAIJAN) Articles 1, 9, 20 and 24 of the Revised Charter. November 2008;
22. European Social Charter; short guide – CoE publishing, Germany, Koelblin-Fortuna-Druck, September 2000, ISBN-10: 9287143102, 252 p.;
23. Implementation of the European Social Charter. Survey by Country – 2001. Information document of the Secretariat of the European Social Charter/ Council of Europe Publishing-January – 2002; ISBN-10: 9287150095, 142 p.;
24. Italy’s Constitutional Court’s Decision of 1994, No 86;
25. Lenia Samuel. “Fundamental social rights: case-law of the European social charter” / Strasbourg: Council of Europe Press, 2002.: KJC 2839 .A52 .S36 2002, ISBN-10: 9287149313, 516 p.;
26. Materials of the Seminar on the European Social Charter (revised) organized by the service of European Social Charter Directorate General of Human Rights and Legal

Affairs – DG HL CoE and the Ministry of Labor, Social Affairs and Family of Slovakia held in Bratislava, 12 February 2008, 26 p.;
27. Netherland's Supreme Court's Decision dated from 1986, 30 May / No NJ 1986/668;
28. Recommendation 1415 (1999) of the PA, "Additional Protocol to the European Convention on Human Rights concerning fundamental social rights";
29. Romanian Constitutional Court's Decisions No 24/2003, 25/2003, 108/2003 and 351/2003;
30. Thomas Buergental "International Human rights in a Nutshell" St. Paul Minn. West Publishing Co. 1995, ISBN-10: 0314184805, 601 p.
31. The protection of fundamental social rights in Europe through the European Social Charter. Proceedings, Sofia 5-7 July 2000-CoE Publishing, 126 p.;
32. West's Encyclopedia of American Law, 2nd Edition, Project Editors: Jeffrey Lehman, Shirelle Phelps, USA, Farmington Hills "Thomson Gale" 2005, ISBN 0-7876-6367-0, 7000 p.

## ПРАВОВОЙ СТАТУС ЕВРОПЕЙСКОЙ СОЦИАЛЬНОЙ ХАРТИИ

**З.А.МИРЗАЕВ**

**РЕЗЮМЕ**

В статье исследован статус Европейской Социальной Хартии в системе международного права, которая является единственным региональным договором, составляющий ядро Европейской Социальной модели и относящийся ко всем аспектам социального обеспечения, а также были изучены теоретические и практические моменты с ее юридической обязанностью. Для достижения цели исследования суть Хартии была изучена в контексте всех ее документов, в то же время введена ясность по важным вопросам ее международного и внутригосударственного статуса.

**Ключевые слова:** права человека, Совет Европы, Европейская Социальная Хартия, Европейская Конвенция о защите прав человека, социальные права, международный договор, самоосуществляющий договор

## LEGAL STATUS OF THE EUROPEAN SOCIAL CHARTER

**Z.A.MIRZAYEV**

**SUMMARY**

In the article the position within the international legal system of the European Social Charter, which is the core of the European social model and the only regional treaty that relates to all aspects of the social protection, as well as theoretical and practical points of views relating to its legally binding features have been researched. In order to achieve the aim of this research, the essence of the Charter has been considered in the context of all documents of which it is composed of, and necessary questions about its international and internal positions have been explained.

**Key words:** Human rights, Council of Europe, European Social Charter, European Convention of Human Rights, social rights, international treaty, self-executing treaty